BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2011*

UOT 94 (479.24)

# BALKAN DÖVLƏTLƏRİ İLƏ TÜRKİYƏ ARASINDA MÜNASİBƏTLƏRİN GƏRGİNLƏŞMƏSİ VƏ TÜRKİYƏNİN DAXİLİ VƏZİYYƏTİ AZƏRBAYCAN MƏTBUATINDA(1900-1912-cı İLLƏR)

**S.F.BAXŞƏLİYEV**
***Azərbaycan Müəllimlər İnstitutu***
***baxsaliebsamir@yahoo.com***

*Türkiyə ilə Azərbaycanın tarix boyu sıx əlaqələri məlumdur. XX yüzilin əvvəllərində beynəlxalq aləmdə qüvvələr nisbətinin müəyyənləşməsinə və birinci dünya savaşının baş verməsinə güclü təsir göstərmiş Trablisqərb və Balkan savaşlarının gedişinə Azərbaycan ictimaiyyəti çox yaxından qardaş münasibəti göstərmişdir Adı çəkilən savaşların Azərbaycan mətbuatında işıqlandırılması indiyədək bir problem kimi ayrıca tədqiqat kimi götürülüb öyrənilməmişdir. Savaşlar ərəfəsində Balkan dövlətləri ilə Türkiyə arasında münasibətlərin gərginləşməsi və Türkiyədə daxili durumla bağlı məsələlərin Azərbaycan mətbuatında necə işıqlandırılması məsələləri əsas diqqət mərkəzində saxlanılır.*

**Açar sözlər:** Balkan, vəziyyət, savaş, imperiya, Azərbaycan, Türkiyə

Türkiyə ilə Azərbaycanın tarix boyu sıx əlaqələri məlumdur. XX yüzilin əvvəllərində beynəlxalq aləmdə qüvvələr nisbətinin müəyyənləşməsinə və birinci dünya savaşının baş verməsinə güclü təsir göstərmiş Trablisqərb və Balkan savaşlarının gedişinə Azərbaycan ictimaiyyəti çox yaxından qardaş münasibəti göstərmişdir (21, 140). Bu münasibət öz əksini dövrün mətbuatında da tapmışdı.

Azərbaycan-Türkiyə münasibətləri tarixində çağdaş mərhələnin hər iki ölkənin mənafeyinə uyğun şəkildə inkişafı onun əvvəlki tarixi mərhələlərini obyektiv şəkildə, yüksək elmi səviyyədə öyrənilməsini qarşıya qoyur. Bu xeyirxah işin təməli "Əkinçi" qəzetilə başlanmışdır desək, yəqin ki, yanılmarıq (1, 49-55).

Adı çəkilən savaşların Azərbaycan mətbuatında işıqlandırılması indiyədək bir problem kimi ayrıca tədqiqat kimi götürülüb öyrənilməmişdir. Bu məqalədə biz savaşlar ərəfəsində Balkan dövlətləri ilə Türkiyə arasında münasibətlərin gərginləşməsi və Türkiyədə daxili durumla bağlı məsələlərin Azərbaycan mətbuatında necə işıqlandırılması məsələlərini təhlil etməyə çalışmışıq.

Balkan yarımadasının mərkəz hissəsində yerləşən Makedoniya vilayəti XIV yüzildən Osmanlı hakimiyyəti altında idi. XX yüzilin əvvəllərində burada

müxtəlif etnik-dini mənsubiyyəti olan xalqlar (türk, bolqar, serb, alban, yunan, yəhudi və b.) yaşayırdı. Xaricdən – böyük dövlətlər və Bolqarıstan, Serbistan, Yunanıstan tərəfindən edilən təhriklər nəticəsində XX yüzilin əvvəllərində bu bölgədə Osmanlı hakimiyyətinə qarşı hərəkat güclənməyə başladı. Bolqarıstan, Yunanıstan və Serbistan burada müxtəlif komitələr, təşkilatlar yaradaraq bölgədə iğtişaşlar törədirdilər. Adı çəkilən Balkan dövlətlərinin hər biri də Makedoniyadan torpaq iddiası ilə çıxış edir, onu bölüşdürməyə çalışırdılar. Bu mübarizədə Bolqarıstan daha çox fəallıq göstərirdi. Onlar bölgədə silahlı dəstələr-çətələr yaratmışdılar. Bu silahlı dəstələr nəinki hökumət təmsilçilərinə, eləcə də yerli dinc əhaliyə qarşı tez-tez hücumlar edir, qarət və qırğınla məşğul olurdular.

Bolqar çətələrinin fəaliyyəti 1910-cu ildə xeyli artdı. «Kaspi» qəzeti 1910-cu il 17 fevral tarixli sayında Strumritsa şəhəri ətraflarında Türkiyə qoşun dəstəsi ilə bolqar çətəsi ararsında baş verən toqquşma haqqında məlumat verir. Bu döyüşdə bolqarlardan üç nəfər öldürülmüş, üç nəfər isə əsir alınmışdı. Hökumət hərbi dəstəsi ilə bolqar çətəsi arasında Qaracadağ qəzasında baş verən digər bir döyüşdə də bolqar silahlıları itki verib geri çəkildi (5, 3).

«Kaspi»nin 1910-cu il 26 fevral tarixli sayında isə Türkiyənin nüfuzlu rəsmi qəzeti olan «Tənin»də dərc edilmiş «Balkan müvazinəti» adlı məqalənin şərhi verilmişdir (6, 3). Burada deyilir ki, Balkan müvazinəti Türkiyə inqilabı, Bolqarıstanın müstəqilliyi və Bosniyanın ilhaq edilməsiylə pozulmuşdu. İndi isə bu tarazlıq Balkan ittifaqını yaratmaq yolu ilə bərpa edilməkdədir. Bunu slavyan monarxlarının Peterburqa səfəri və Serb kralının İstanbulda səfərdə olarkən verdiyi bəyanat təsdiqləyirdi. Məqalədə qeyd edilirdi ki, buna birinci olaraq Avstriya mətbuatı diqqət yetirdi.

Avstriya mətbuatı slavyanlardan xilası Avstriyanın yardımında axtarmağı Türkiyəyə təklif edirdi. Ancaq «Tənin» Balkanlardakı slavyan hərəkatının Türkiyə üçün təhlükəli olmadığını irəli sürürdü. «Tənin»ə görə konstitusiyanın elanından sonra Türkiyə və Rusiya arasında münasibətlər dostluq prinsipinə əsaslanır (6, 3).

Yuxarıda adı çəkilən Balkan ittifaqını – Balkan dövlətləri federasiyasını yaratmaq məsələsi də artıq 1910-cu ilin əvvəlindən sürətlə aktuallaşmışdı.Bu birləşmə Türkiyəyə qarşı idi. Ancaq onu reallaşdırmağa çalışanlar Türkiyənin diqqətini danışıqlar, bəyanatlar və s. yollar ilə yayındırmağa çalışırdılar. 1910-cu ilin mart ayında bolqar siyasi xadimi Naçeviç «Russkoye Slovo» qəzetinin müxbiri ilə söhbətində deyirdi: «Balkan federasiyası əlbəttə həyata keçirilə bilər. Onun həyata keçməsi üçün birinci şərt Türkiyə ilə ciddi razılaşmadan ibarətdir. Əgər Bolqarıstan hökuməti federasiyanı səmimi olaraq istəyirsə, belə bir razılaşmanı əldə etmək tamamilə mümkündür» (7, 3). Türkiyə ilə Bolqarıstan arasında bir sıra məsələlərin müzakirəsi və həlli üçün komissiya fəaliyyət göstərirdi. «Kaspi» qəzeti 28 yanvar 1911-ci il tarixli sayında yazırdı ki, Türkiyə-Bolqarıstan arasında ticarət-iqtisadiyyat sahəsində bir sıra razılaşmalar əldə edildi (11, 3). İlk öncə gəmiçilik və xırda buynuzlu heyvanların idxal

rüsumu ilə bağlı bir sıra mübahisəli məsələlərdə saziş imzalandı (13, 3). Bundan bir neçə gün sonra Bolqarıstanın xalq məclisi müvəqqəti türk-bolqar ticarət müqaviləsini təsdiq etdi (14, 3). Türkiyə məclisində isə 9 ay müddətinə türk-bolqar gömrük sazişi qəbul edildi (15, 3). Bütün bunlara baxmyaraq, əslində Türkiyə ilə Balkan dövlətləri arasında münasibətlərdə gərginlik hökm sürürdü. Makedoniyada Osmanlı dövlətinə qarşı fəaliyyət göstərən təşkilatlar birləşməyə başlamışdılar. 1911-ci ilin martında Sofiyadan alınan məlumata görə Sandanın təşkilatından başqa bütün təşkilatlar birləşmişdi (10, 3). Bü birləşmə gizli şəkildə Türkiyə əleyhinə yönəlmişdi.

Bu dövrdə sərhəd münaqişələri də davam etməkdə idi. Mart ayında Türkiyə – Serbistan sərhəddində baş verən münaqişə günlərlə sürən silahlı toqquşmaya çevrildi (17, 3). Serbistan da digər Balkan dövlətləri kimi Türkiyə torpaqlarına göz dikmişdi. Qaradağ ilə münasibətlərdə gərginlik getdikcə artırdı. 1911-ci ilin iyul ayında Rusiyanın Qaradağdakı səfiri ölkədə siyasi-iqtisadi durumun qaçqın albanların axınları ilə xeyli gərginləşdiyini bildirirdi. Səfirin məlumatında deyilirdi ki, Qaradağı qarşıda gözlənilən savaşda bitərəf saxlamaq artıq mümkün deyil. Qaradağın hərbi dəstələri Türkiyə ərazisinə girməli olacaq. Səfirin fikrincə, Qaradağ ilə Türkiyə arasında münaqişəni sülh yolu ilə həll etmək artıq mümkün deyil (18, 3). Beləliklə, 1911-ci ilin sonlarına doğru Balkan dövlətləri ilə Türkiyə arasında münasibətlər xeyli gərginləşmişdi. Balkan dövlətləri Osmanlı dövlətinə qarşı öz aralarındakı narazılıqları müvəqqəti boğaraq ümumi dil tapmaq yolunu tutmuşdular.

XX yüzilin əvvəllərində (ümumiyyətlə, XIX yüzilin ikinci yarısından başlayaraq), Trablisqərb və Balkan savaşları ərəfəsində Türkiyə böyük dövlətlər və Balkan dövlətləri ilə daha fəal münasibətdə idi. Böyük dövlətlərdən isə yalnız Almaniya ilə Türkiyə arasında münasibətlər dostluq əsasında inkişaf etməyə başlamışdı. Balkan dövlətləri öz aralarındakı ixtilafları, mübahisəli məsələləri müvəqqəti olaraq unudaraq Türkiyəyə qarşı – Osmanlı hakimiyyətini Balkanlardan uzaqlaşdırmaq uğrunda birləşməyə başladılar və müvəqqəti olaraq bunu əldə etdilər. Böyük dövlətlər əslində Balkan xalqlarını Türkiyənin nüfuzuna qarşı qızışdırırdılar. İngiltərə, Fransa və Rusiya Balkan dövlətlərindən Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. İtaliya ilə münasibətlər isə getdikcə gərginləşirdi (22, 144). Bu məsələ isə sonrakı bölmədəki araşdırmada öyrəniləcək. 1911-ci ilin əvvəllərində rəsmi qəzet «Tənin»də Türkiyə hökumətinin xarici siyasətinə həsr edilmiş məqalədə Gənctürklərin rəhbərlərinin maraqlı xarakterizəsi verilirdi. Qəzetin başlıca fikri bu idi (19, 3). Türkiyə beynəlxalq həyatın bütün əsas məsələlərində, mümkün olduqca, bitərəf qalmalıdır. Ancaq görüşlər, fikir mübadilələri yolu ilə olduqca ciddi məsələləri həll edən, hətta illərlə davam edən anlaşılmazlıqları ortadan qaldıran digər dövlətlərin təcrübəsini təkrarlamaqla, yəni görüşlər və fikir mübadilələrini həyata keçirməklə, Türkiyə Bağdad dəmiryolu tikintisinə dair İngiltərənin baxışlarını öyrənə bilər. Qəzet açıqlayırdı ki, Türkiyə saziş vasitələrini aramalıdır. Ona görə ki, ingilislər türkləri Misirdə və Hindistanda

panislamizmin carçısı hesab edərək onlara etibar etmirlərsə, Türklər öz növbələrində ingilislərin Mesopotamiyada yeritdikləri siyasətdən narahat olduqlarını göstərməlidirlər. «Tənin» qəzeti belə nəticə çıxarırdı ki, nə olursa olsun, bir-birini anlamaq və İngiltərə ilə formal saziş bağlamaq lazımdır. «Tənin»də irəli sürülürdü ki, eyni siyasət Fransaya qarşı da tətbiq edilməlidir. Fransanın istəkləri öyrənilərək durumun, şəraitin yol verdiyi dərəcədəŞ, onlar təmin edilməlidir. Daha sonra qeyd edilirdi: Bu yol ilə Türkiyə özü üçün tamamilə əlverişli şərait yarada biləcək və böyük dövlətlərin iki birliyi arasında, necə deyərlər, tənzimləyici olacaqdır.

Türkiyədə konstitusiyanın elanından sonra kabinə dəyişmələri bir-birini əvəz etdi. Əhməd bəy Ağaoğlunun 1910-cu ilin əvvəlində «Kaspi» qəzetinə yazdığı məktubda göstərildiyi kimi, ilin əvvəlində təşkil edilən sədrəzəm Haqq Bəy (bundan sonra Haqqı Paşa) kabinəsi konstitusiyanın mövcud olduğu 18 ayda səkkizinci kabinə idi (8, 3). Tez-tez baş verən kabinə dəyişmələri dövlət işlərinə mənfi təsir göstərir, əhali içərisində də həyəcanlı durumu artırırdı. Ə.B.Ağaoğlunun qeyd etdiyi kimi, bu dəyişmələrdən bezən əhali, ictimaiyyət hökumətdə möhkəm bir əli arzulayırdı. Haqqı Paşa da bunu bilərək fəaliyyətə başladı.

İstanbulun nüfuzlu «Sabah» qəzeti hökumət böhranı ilə bağlı olaraq 1910-cu ilin əvvəllərində Türkiyənin yaxın vəzifələrini şərh edirdi (9, 3). Belə ki, qəzetə görə Türkiyə bundan sonra əsla Avropadan yardım gözləməməli, yalnız öz qüvvəsinə güvənməlidir. Xaricdən gələn rəğbət və vədlər olduqca siyasi tərəddüdlər ilə xarakterikdir, istənilən vaxt bu rəğbət və vədlər yox ola bilər. Məhz buna görə də, yeni rejim ölkəni daxildən dirçəltməyə böyük səylə girişib.

«Sabah» qəzeti Türkiyə üçün başlıca təhlükənin daxil vəziyyətdə olduğunu irəli sürürdü. Belə ki, mütləqiyyət yeni rejimə xroniki xəstəliyi miras qoyub gedib, hər şeydən öncə bu xəstəlik müalicə olunmalıdır. Bunun üçün həm də xarici dövlətlər, ölkələr ilə əməkdaşlıq etmək lazımdır. Siyasi məqsədlər güdmədən xarici kapitalın ölkəyə daxil olmasına yol vermək olar. Qəzet daha sonra bildirirdi ki, ölkəmizdə xaricilərin özümüzə nisbətən daha geniş ticarət hüququndan istifadə etməsi ilə razılaşa bilmərik (10, 4).

Hökümətin tərkibində ixtilaflar davam edirdi. Makedoniyada yeridilən siyasi istiqamət məsələsində fikir ayrılığı ilə bağlı olaraq daxili işlər naziri Tələt bəy 1911-ci ilin fevral ayında istefa verdi. Bundan başqa, Tələt bəyin gizli olaraq konstitusiyanı dəyişdirib sultanın səlahiyyətlərini artırdığı və senat ilə deputatlar palatası arasında munaqişə yaratdığı iddia edilirdi (20, 3).

Tələt bəyin istefasından sonra daha bir neçə nazirin istefa məsələsi məclisdə müzakirə edilməyə başladı. Artıq ümumi kabinə böhranı gözlənirdi. Buna səbəb isə hökumət ilə Gənctürklərin Səlanikdə yerləşən əsas komitəsi arasında Yəmən üsyanının yatırılması məsələsində yaranan fikir ayrılığı oldu. Belə ki, hökumət üsyançılara qarşı daha fəal və sərt tədbirlər görülməsinin, komitə isə barışdırıcı siyasətin tərəfdarı idi (20, 3).

Beləliklə, savaşlar ərəfəsində hökümətdə yaranan fikir ayrılıqları, böhranlı anlar dövlətin hərbi qüvvəsinə də mənfi təsir göstərir, çevik daxili və

xarici siyasətin yeridilməsinə mane olurdu.

Bəhs olunan dövrdə Babiali daxili və beynəlxalq durumu göz önündə tutaraq milli təhlükəsizliyin təmin edilməsinə, dövlətin hərbi qüvvəsinin gücləndirilməsinə diqqəti artırdı. Balkanlarda qaynaşma getdikcə güclənirdi. Bu isə savaş təhlükəsini artırırdı. Əslində bolqarlar, yunanlar, serblər, qaradağlılar sürətlə silahlanırdılar. Diqqəti yayındırmaq məqsədilə Türkiyənin daha çox silahlandığına, hərbi qüvvəni artırdığına dair iddialar irəli sürürdülər. Bununla bağlı olaraq «Kaspi» qəzeti 6 aprel 1904-cü il tarixli sayında dərc edilən Sofiyanın «Veçernıe poçtı» qəzetinin İstanbul müxbirinin məlumatı müəyyən bir təsəvvür yaradır. Burada Avropa vilayətlərində Türkiyə ordu hissələrinin tədricən tərxis edildiyinə dair rəsmi mənbələrin yaydığı xəbər təkzib edilirdi. Müxbir bildirirdi ki, Türkiyə ordusu ehtiyatda olanların yeni çağırışları ilə daha da artırılır. Makedoniyada türk ordusunun başlıca qüvvələri Üskübdə (Skopyedə) cəmləşdirilir, türklər bolqarlara etibar etmirlər və belə düşünürlər ki, ordunun hətta bir hissəsi buraxılsa, bolqarlar dərhal onlara hücum edəcəklər (2, 3).

Həmin müxbirin sözlərinə görə hərbi hazırlıqla bərabər Türkiyənin İtaliyaya münasibəti də mülayimləşərək yaxşılaşmağa doğru istiqamətlənib (23, 92). Müxbir bir qədər istehzalı şəkildə ifadə edir ki, Türkiyənin İtaliyaya iltifatı İtaliyanın Türkiyəyə çox sərfəli şəkildə və uzun müddətli kreditlə bir neçə iri hərbi gəmi satması ilə izah oluna bilər. Bu məlumatdan aydın olur ki, Türkiyə Genuyaya təmir üçün 5 köhnə kreyser göndərib və xidmət üçün İtaliyadan 240 dənizçi zabit və mexanik gətirib. «Kaspi» qəzeti bundan dörd gün sonra eyni qaynağın başqa bir məlumatını dərc edib. Dərc edilən bu məlumata görə Türkiyə ictimaiyyətinin Yaponiyaya marağı artmış, Türkiyə də yaponlar kimi gizli və tələsik şəkildə silahlandırılırdı (3, 3).

İkinci qaynağa görə Türkiyə donanmasının yenidən təşkili və dirçəldilməsi məsələlərini müzakirə etmək üçün hökumət xüsusi komissiya yaratdı. Komissiya işini başa çatdırıb məruzə hazırladı. Bundan sonra hökumət bu məruzəni Sultanın təsdiqinə göndərdi. Sənəd təsdiq edildikdən sonra Qərbi Avropadan təcili olaraq mütəxəssislər gətirdiləcək və onlar da gəmiləri silahlandırmağa başlayacaqdılar (3, 3).

Qəzet materiallarını araşdırdıqda məlum olur ki, Osmanlı hökuməti XX yüzilin ilk onilində hərbi dəniz qüvvələrinin gücləndirilməsinə xüsusi əhəmiyyət verib. Türkiyə böyük hərbi gəmilər qayırmağa dair Amerikaya sifarişlər verdikdən sonra özü kiçik gəmilər qayırmağa başladı. 1904-cü ildə Fransadakı Krezo zavodu 4 mina gəmisi hazırlamaq üçün Türkiyədən sifarişlər aldı. İtaliyanın bir neçə tərsanəsinə də belə sifarişlər verildi. Xarici qəzetlərin qənaətinə görə bütün bu sifarişlər yerinə yetirildikdən sonra İstanbulun Xəlic körfəzində olduqca böyük hərbi qüvvəsi mövcud olacaqdı (4, 3).

1910-cu ildə isə ianə hesabına dörd eskada mina daşıyanı alındı. Gəmiqayırma işinə dair 5 illik proqram hazırlandı. Bir neçə iri zirehli və digər hərbi gəmilərin hazırlanması nəzərdə tutuldu (11, 3).

Türkiyə hərbi donanmasının qurulmasına dair 1910-cu ildə Milli Şura

yaradıldı. Hökumətin təsdiqindən sonra Sultanın fərmanı ilə Şuranın fəaliyyəti qanunlaşdırıldı (9, 3). Bu şuranın yaradılması əhali və mətbuat tərəfindən böyük rəğbətlə qarşılandı. Hərbi donanmanı gücləndirmək məqsədilə əhali arasında Milli şuranın xeyrinə pul vəsaiti toplanmağa başlandı. Şuranın təsisçiləri və daimi üzvləri qısa müddət ərzində 150 min lirə toplayıb hərbi gəmilər əldə etmək üçün hökumətə verdilər. Bundan başqa milli qəhrəmanlar olan Ənvər bəyin və Niyazi bəyin şərəfinə iki hərbi gəmi almaq üçün hökumətə 30 min lirə verildi. Şura əlavə olaraq Məkkə ziyarətinə gələnlərdən 40 min, məscidlərdən isə 8 min lirə topladı. Türkiyənin 29 vilayətindən toplanan məbləğ isə xeyli böyük idi. İstanbuldakı mərkəzi hərbi klub 2 il müddətində bir aylıq maaşlar məbləğində pulu şuranın fonduna keçirməyi bütün zabitlərə təklif etməyi qərara aldı. Misirdə və Trablis vilayətində xeyli miqdarda vəsait toplandı. Bu isə Türkiyə hərbi donanmasını yaratmaq ideyasının müsəlman aləmində böyük rəğbətlə qarşılandığını göstərirdi.

Hərbi gəmilər almaq üçün vitseadmiral Rahim Paşa və üç nəfər dənizçi zabitdən ibarət komissiya Avropaya yola düşdü.

Bütün bunlarla bərabər Sultan Məhməd şəxsi vəsaitindən 23 min lirə şuraya hədiyyə etdi (12, 3).

Göründüyü kimi Türkiyə hərbi donanmasının yaradılmasında xalq kütlələri, qabaqcıl ictimaiyyət, məmurlar, yüksək vəzifəli şəxslər geniş ölçüdə iştirak edərək buna vətən borcu kimi baxmışdılar (23, 79).

Qəzet materiallarından aydın olur ki, savaşlar ərəfəsində Osmanlı dövləti beynəlxalq münasibətlərdə barışdırıcı siyasətə, sülh siyasətinə tərəfdar olmuşdur. Ancaq Balkan dövlətləri və İtaliya ilə münasibətlər getdikcə gərginləşmişdir. Rusiya Balkan birliyinin yaradılmasında fəal rol oynayaraq burada Türkiyə əleyhinə təhrikləri həyata keçirdi. İngiltərə və Fransa isə Osmanlı dövlətinə qarşı səmimi olmayan siyasət yeridir, ona qarşı müxalifət qüvvələrin təşkilini dəstəkləyirdilər. Avstriya-Macarıstan ilə münasibətlər də sabit deyildi. Avstriya-Macarıstan Balkanda nüfuz əldə etmək və dənizə çıxmaq istəyirdi. Böyük dövlətlərdən yalnız Almaniya ilə münasibətlərdə getdikcə yaxınlaşma özünü göstərirdi.

Türkiyənin daxili durumunda da sabitlik yox idi. Konstitusiyanın elanından sonra hökumət böhranı xroniki hal aldı. Dövlətin müdafiə qabiliyyətini artırmaq, hərbi qüvvəni gücləndirmək məqsədilə bir sıra tədbirlər həyata keçirilsə də bu sahədə işlər lazım olan səviyyədə deyildi. Artıq 1910-cu ilin sonları – 1911-ci ilin əvvəllərindən savaş təhlükəsi qapının ağzında idi.

## ƏDƏBİYYAT


1. Əkinçi. 1875-1877 (Tam mətn), Bakı: Avrasiya-Pres, 2005
2. «Каспий». 6 апреля 1904 г., №177
3. «Каспий». 10 апреля 1904 г., №179
4. «Каспий». 10 октября 1904 г., №227
5. «Каспий». 17 февраля 1910 г., №38
6. «Каспий». 26 февраля 1910 г., №46
7. «Каспий». 7 марта 1910 г., №53
8. «Каспий». 15 января 1910 г., №11

9. «Каспий». 10 февраля 1910 г., № 30
10. «Каспий». 12 февраля 1910 г., №32
11. «Каспий». 28 января 1910 г., №22
12. «Каспий». 14 февраля 1910 г., № 34
13. «Каспий». 8 февраля 1911 г., № 30
14. «Каспий». 11 февраля 1911 г., № 33
15. «Каспий». 24 февраля 1911 г., №43
16. «Каспий». 10 марта 1911 г., №55
17. «Каспий». 13 марта 1911г., № 58
18. «Каспий». 17 июля 1911 г., №159
19. «Каспий». 18 января 1911 г., № 12
20. «Каспий». 30 января 1911 г., № 24
21. S.Bahşaliev. Trablusqarp və Balkan savaşları Öngununde Girit Sorunu Kuzey Azerbaycan Basınında. Bilimsel Eksen Uluslararası Hakemli Sosial Bilimlep dergisi. 4 sayı. Ankara. 2011.
22. S.F.Baxşəliyev. Azərbaycan mətbuatında Trablis müharibəsinə münasibət haqqında(1911-1912-ci illər). Bakı Universitetinin Xəbərləri. Humanitar elmləri seriyası, 2010. №2 s.144-148.
23. Orhan Kologlu. Trablusgarp savaşı və Türk Subayları. Basın Yayın Genel Müdürlüğü., Ankara: 1979, 367 s.

## ОБОСТРЕНИЕ ОТНОШЕНИЙ МЕЖДУ ТУРЦИЕЙ И БАЛКАНСКИМИ ГОСУДАРСТВАМИ И ВНУТРЕННЕЕ ПОЛОЖЕНИЕ ТУРЦИИ В АЗЕРБАЙДЖАНСКОЙ ПЕЧАТИ (1900-1912 ГГ.)

**С.Ф.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье исследуются вопросы отношения между Турцией и Балканскими государствами перед Траблисской и Балканскими войнами. Становится ясно, что политика России и других великих держав Европы привели Турцию и Балканские государства к состоянию войны. С другой стороны, Османское правительство не проводило соответствущую политику, чтобы не допустить объединения Балканских государств в одном союзе против него. Органы периодической печати Азербайджана того времени на своих страницах старались ежедневно следить за этими событиями. Газеты под разными рубриками издавали хронику событий, авторские письма и другие сообщения.

**Ключевые слова:** Балканы, ситуация, война, империя, Азербайджан, Турция

## THE TENSION OF RELATIONS BETWEEN BALKAN STATES AND TURKEY AND THE INTERNAL STATE OF TURKEY IN THE AZERBAIJANI PRESS (1900-1912)

**S.F.BAKHSHALIYEV**

### SUMMARY

In this paper, we investigate questions of relations between Turkey and the Balkan states before Trabliss and Balkan wars. It appears that the policy of Russia and the other great powers of Europe resulted in the war between Turkey and the Balkan states. On the other hand, the Ottoman government failed to pursue the appropriate policy to prevent the unification of the Balkan states into one union against it. The bodies of the periodical press in Azerbaijan tried to keep the track of these events at that time. Newspapers published chronicle of events, letters and other messages under various titles.

**Key words:** Balkan, situation, war, empire, Azerbaijan, Turkey